UOT: 339.9; 338
JEL: L 59; F 00

ORUCOVA M. S.
AzTU-nun "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının dissertantı

SƏNAYE SEKTORUNUN QLOBAL İQTİSADİ İNKİŞAFDA ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Xüslasə

Tədqiqatın məqsədi: dünya üzrə iqtisadi sektorların inkişaf dinamikası əsasında strateji prioritet sahələrin müqayisəsi

Metodologiya: müqayisəli analiz

Nəticələr: dünya üzrə sənaye və kənd təsərrüfatı sektorunun ÜDM-da payı davamlı olaraq azalır. Xidmət sektorunun payı isə artır.

***Açar sözlər**: strateji prioritet, sənaye sektoru, kənd təsərrüfatı sektoru, xidmət sektoru*

GİRİŞ

Azərbaycan iqtisadi ədəbiyyatında, eləcə də rəsmi dövlət sənədlərində "prioritet iqtisadi sahələr" və "müqayisəli üstünlük sahələri" terminləri tez-tez işlədilir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da "prioritet sahələr" anlayışından geniş istifadə edilib. Lakin bu iki anlayış arasında müəyyən fərqlərin olmasını unutmaq olmaz. Dövlətin əsas iqtisadi vəzifəsi əhalinin maddi rifahının təmin edilməsi olduğundan bu məqsədin reallaşmasına aparan istənilən fəaliyyət sahəsi prioritet ola bilər. Milli sərvətin artırılmasına, iqtisadi təhlükəsizliyin qorunmasına, ekoloji təsirlərin azaldılmasına yönələn hər bir iqtisadi fəaliyyət sahəsi əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynadığından prioritet sayıla bilər. Beləliklə, prioritet iqtisadi sahələr daha çox qlobal çağırışlarla, regional və lokal problemlərlə bağlı olaraq

dövlətin vacib hesab etdiyi sahələrdir.

Heç bir ölkə onun üçün lazım olan hər şeyi təkbaşına istehsal edə bilməz. Bəşər tarixi sübut edir ki, hər şeyi istehsal etmək və ya ona can atmaq lazım da deyil. Çünki istehsal faktorlarının dünyada qeyri-bərabər paylanması, müxtəlif coğrafi şərait ölkələr və onların iqtisadi imkanları arasında fərqlilik yaradır. Odur ki, hər bir ölkə üçün "nəyi isə" istehsal etmək idxal etməkdən daha baha və ya çətin olur. Hər hansı mal və ya xidmətin idxal olunması isə zəruri miqdarda valyuta ehtiyatının olmasını tələb edir. Valyuta ehtiyatı isə ölkə tərəfindən hər hansı mal və ya xidmətin ixracı olduqda toplana bilir. Beləliklə, ölkələr ona lazım olan mal və xidmətləri əldə etmək üçün özü hər hansı mal və ya xidmətin ixracını təmin etməlidir. Başqa sözlə desək, ixrac ona görə zəruridir ki, idxala ehtiyac var. Beləliklə, dünyada heç bir ölkə idxalı yox edə bilməyiyi kimi, ixracı da yox edə bilməz. Lakin ixrac elə mal və xidmətlərə əsaslanmalıdır ki, onlara dünya bazarında ehtiyac olsun. Deməli, elə mal və xidmətlər istehsal etmək lazımdır ki, dünya bazarında "müqayisəli üstünlüyə" malik olsun. Daha doğrusu, müqayisəli üstünlük sahələri-dünya bazarında (və ya regional bazarlarda) yer almış və ya ala biləcək «rəf» sahələridir.

Deməli, "Prioritet sahələr" və "müqayisəli üstünlük sahələri" eyni anlayışlar deyil. Belə ki, bütün müqayisəli üstünlük sahələri həm də prioritet sahələrdir, amma bütün prioritet sahələr potensial müqayisəli üstünlük sahələri deyil və ola da bilməz. Dövlətin dəstəyi və müdaxiləsi olmadan hər hansı bir prioritet sahənin müqayisəli üstünlük sahəsinə çevrilməsi mümkün deyil. Bu prosesdə dövlət maraqlı olmalıdır və strateji struktur prioritetlərinin müəyyən edilməsində dövlət idarəçilik institutları və elmi müəssisələrin birgə fəaliyyəti zəruridir.

Strateji struktur prioritetlərinin və onun əsasında müqayisəli üstünlük sahələrinin formalaşdırılması bütün dövrlərdə dövlətlərin iqtisadi siyasətinin və alimlərin elmi müzakirələrinin predmeti olub. Məsələn, XVII əsrdə merkantilistlər milli sərvətin mənbəyini xarici ticarət hesab edərək, nə qədər mümkünsə, ixracı artırmaq və ölkəyə daha çox qızılın gətirilməsinə nail olmağı zəruri hesab edirdilər. İxracın idxaldan çox olmasına səy göstərmək və müsbət tədiyyə ba-

lansını əldə etmək ideyası bu gün də qalır. Amma xarici iqtisadi əlaqələrin, eləcə də milli sərvətin mahiyyəti köklü dəyişib.

Fiziokratlar VIII əsrdə milli sərvətin mənbəyi kimi torpaq və əməyi hesab edirdilər. O dövrdə digər istehsal faktorlarının nəzərə alınmaması təbii idi. Klassiklər bir qədər irəli gedərək milli sərvətin mənbəyi kimi maddi istehsalı nəzərdə tuturdular.

Maddi istehsal üçün vacib olan istehsal vasitələrinin istehsalı marksistlərdə ön plana keçir. Marksistlərin fikrinə görə istehsal vasitələrinin istehsalı daha üstün sürətlə artmalıdır. Leninçilər də milli sərvətin mənbəyini maddi istehsal hesab edirdilər. Amma onlar istehsal vasitələri istehsalı üçün istehsal vasitələri istehsalının daha sürətlə artımını zəruri hesab edirdilər. Beləliklə, leninçilər milli sərvətin bu gün və sabah üçün insanların rifah halının yüksəldilməsi və iqtisadi təhlükəsizliyinin qorunması vasitəsi olduğunu unudaraq istehsal vasitələrinin istehsalı üçün vacib olan istehsal vasitələrinin istehsalına prioritet kimi yanaşdılar.

Beləliklə, leninçi «xəstə» sahə strukturu nəzəriyyəsinə əsaslanan SSRİ iqtisadiyyatı mənasız və "insandan kənar" fəaliyyət sahəsinə çevrildi. Prioritet iqtisadi sahələrin qlobal çağırışlara və humanist tələblərə cavab verməməsi, təbii ehtiyatlara əsaslanan ixrac, dünya iqtisadiyyatında müqayisəli üstünlük sahələrinin olmaması, qeyrçeviklik və sair problemlər SSRİ iqtisadiyyatına ciddi zərbə vurdu. SSRİ – daxili əlaqələrin də müqayisəli üstünlük əsasında qurulmaması onun süqutundan dərhal sonra əlaqələrin qırılmasına səbəb oldu. Başqa sözlə desək, post-sovet dövlətlər arasında iqtisadi əlaqələrin pozulmasının əsas səbəbi SSRİ-nin dağılması deyildi, o vaxtkı əlaqələrin lazımsızlığı idi. Əks halda azad bazara xas olan daxili tənzimləmə onları rədd etməzdi və saxlayıb dərinləşdirərdi.

Milli sərvətin əsasında maddi istehsalın, xüsusilə, sənayenin durduğunu iddia edən iqtisadçılar hələ də az deyil. Onlar hələ də güman edirlər ki, milli sərvəti artırmaq, insanların rifahını yüksəltmək və iqtisadi təhlükəsizliyi təmin etmək üçün əsas yol maddi istehsal sahələrinin, o cümlədən sənayenin və kənd təsərrüfatının inkişaf etdirilməsidir. Amma yuxarıda qeyd etdiyimiz kimi, heç bir ölkə bütün sənaye mallarını və hər növ kənd təsərrüfatı məhsullarını istehsal edə bilməz. Dünya ölkələrində iqtisadi inkişafın, xüsusilə sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin müqayisəli təhlili bunu deməyə əsas verir ki, hər hansı bir ölkədə, ən geniş mənada, iqtisadi inkişafın əsasında heç də ölkənin maddi nemətlər istehsalı dayanmır. Yəni, elə inkişaf etmiş ölkələr var ki, orda maddi nemətlər istehsalının aşağı səviyyədə olmasına baxmayaraq güclü iqtisadi inkişaf təmin edilib.

2013-cü ildə sənayenin artım tempi üzrə dünya ölkələrinin reytinqində Qırğızıstan 6-cı, Avropa İttifaqı isə 167-ci yerdə idi. Bu sıralamada Türkmənistan 22-ci Litva isə 124-cü yerə qərarlaşmışdılar. Ölkəmiz isə 3% illik artımla 95-ci yerdə idi.

Dünya ölkələri üzrə adambaşına ÜDM-un həcmi ilə sənayenin iqtisadiyyatda payı arasındakı əlaqənin təhlili sübut edir ki, adambaşına ÜDM həcmi yüksəldikcə sənaye sektorunun ölkə iqtisadiyyatında payı azalır. Məsələn, adambaşına ÜDM həcmi 5-20 min ABŞ dolları arasında olan ölkələrin əksəriyyətində sənayenin payı 30%-dən çox olduğu halda adambaşına ÜDM 40 min ABŞ dollarından çox olan ölkələrdə sənayenin payı 25% ətrafındadır.

Dünya ölkələri üzrə adambaşına ÜDM-un həcmi ilə kənd təsərrüfatının iqtisadiyyatda payı arasındakı əlaqənin təhlili də keyfiyyətcə eyni mənzərəni təkrarlayır. Yəni hansı ölkələrdə adambaşına ÜDM həcmi azdırsa orda kənd təsərrüfatının payı iqtisadiyyatda yüksəkdir. Əksinə adambaşına ÜDM həcmi çoxaldıqca kənd təsərrüfatının iqtisadiyyatda payı azalır. Məsələn, adambaşına ÜDM-un həcmi 20 min ABŞ dollarından çox olan ölkələrdə kənd təsərrüfatının payı 4-5% ətrafındadır. Adambaşına ÜDM-un həcmi 5 min ABŞ dollara qədər olan ölkələrdə isə bu pay 20-60% arası dəyişir.

Belə bir asılılığı xidmət sahələri ilə bağlı təhlil etdikdə isə tamamilə əks mənzərə ortaya çıxır. Belə ki, adambaşına ÜDM-un həcmi artdıqca xidmət sahələrinin iqtisadiyyatda payı da artır. Adambaşına ÜDM həcmi 20 min ABŞ dollarından çox olan ölkələrdə xidmət sektorunun payı 70% ətrafındadır. Adambaşına daha aşağı ÜDM həcminə malik olan ölkələrdə isə bu pay xeyli azdır.

Beləliklə, bu üç sahənin müqayisəli təhlili bunu deməyə əsas verir ki, maddi nemətlərin istehsalına strateji prioritet kimi yanaşaraq sənaye və kənd təsərrüfatını inkişaf etdirməyə üstünlük verən ölkələrdə adambaşına ÜDM-un həcmi xidmət sahələrini strateji prioritet inkişaf xətti götürən ölkələrə nisbətən xeyli azdır. Yəni xidmət sahələrini strateji prioritet hesab edən ölkələrdə əhalinin rifah halı daha yüksək, milli sərvət daha çox, iqtisadi təhlükəsizlik daha təminatlıdır.

Deməli, bütün hallarda milli sərvətin artırılması və insanların yüksək rifahını təmin etmək üçün müqayisəli üstünlük sahələrinin yaradılması və genişləndirilməsi daha məqsədəuyğundur.

Strateji prioritet kimi maddi nemətlər istehsalını və yaxud xidmət sahələrinin inkişafını seçən ölkələrdə iqtisadi inkişafın və əhalinin rifah halının müqayisəli təhlili belə bir nəticə çıxarmağa imkan verir:

- hansı ölkələr öz iqtisadi fəaliyyətində xidmət sahələrinə, xüsusilə bilik tutumlu xidmət sahələrinə üstünlük veribsə, onlar bundan sonra da inkişaf etməkdə davam edəcəklər;
- hansı ölkələr maddi nemətlər istehsalına üstünlük verərək "hər şeyi" özləri istehsal etməyə cəhd edəcəklərsə, onlar iqtisadi cəhətdən geriləməkdə davam edəcəklər. +

Strateji prioritet qismində xidmət sektorunu, xidmətlər arasında isə intellekt-tutumlu xidmət sahələrini "müqayisəli üstünlük sahəsi" seçən və inkişaf etdirən ölkələr yaxın onilliklərdə daha uğurla inkişaf edəcək və daha dayanıqlı iqtisadiyyat quracaqlar. Öz "müqayisəli üstünlük sahələrini" intelekt-tutumlu xidmət sektorunda yaradan ölkələr heç də maddi nemətlər istehsalından tamamilə imtina etmir. Əksinə, bu sahənin inkişafı daha intensiv və məqsədyönlü xarakter dayıyaraq "müqayisəli üstünlük sahəsinin" inkişaf tələblərinə uyğunlaşdırılmış olur.

Bu nəticələri Azərbaycana və adambaşına ÜDM göstəricisinə görə onunla təxminən eyni səviyyədə olan ölkələrin iqtisadi perspektivinə də tətbiq etmək olar. Odur ki, Azərbaycanın davamlı inkişafını təmin etmək üçün strateji prioritet qismində xidmət sektoru, xidmətlər arasında isə intellekt-tutumlu xidmət sahələri seçilməlidir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında inkişaf etdirilməsi nəzərdə tutulan prioritet sahələr kimi müxtəlif sahələr, o cümlədən xidmət sahələri sadalanıb. Onların arasında 1)İnformasiya-kommunikasiya texnologiyaları; 2)Turizm və 3) ölkələrarası nəqliyyat daşımaları xüsusi qeyd edilib. Hər üç prioritet sahədə "müqayisəli üstünlük sahələrini" inkişaf etdirmək üçün Azərbaycanda kifayət qədər potensial imkanlar var. Xüsusilə, turizm və ölkələrarası nəqliyyat daşımaları üçün zəruri olan iqlim və əlverişli coğrafi şərait Azərbaycanı bu sahələrdə dünya bazarında "müqayisəli üstün mövqedə" möhkəmləndirə bilər.

Potensial müqayisəli üstünlük sahələrini müəyyənləşdirmək və onları real müqayisəli üstünlüklərə çevirmək üşün elmi əsaslandırılmış təkliflərin hazırlanması Azərbaycan iqtisad elminin qarşısında duran əsas vəzifələrdən biridir. İqtisadi tədqiqatların dəyərləndirilməsində isə nəticələrin konstruktivliyi əsas meyara çevrilməlidir.

Azərbaycanda potensial müqayisəli üstünlük sahələrindən biri də sənaye sektoru ola bilər. Istənilən ölkənin iqtisadi inkişafının, xüsusilə iqtisadi təhlükəsizliyinin əsas göstəricilərindən biri də onun sənaye sektorunun inkişafı ilə bağlıdır. Baxmayaraq ki, sənaye sektorunun ÜDM həcmindəki payı dünya üzrə getdikcə azalmaqdadır, mütləq çəkisi ilə ilbəil artır. Əmək məhsuldarlığının durmadan artması, elm və texnologiyanın inkişafı, innvovasiyalı sənaye istehsalının genişlənməsi bu sektorda məşğul əhalinin sayını azaltmaqla yanaşı ÜDM-da da ümumi çəkisini azaldır.

1-ci cədvəldən göründüyü kimi, sənayenin və kənd təsərrüfatının ÜDM həcmindəki payı davamlı olaraq azalmaqda, xidmət sektorunun payı isə artmaqdadır. Son 20 ildə sənayenin ÜDM-da payı 33,58% -dən 27,62% qədər azalıb. Lakin bu sektorda yaradılan əlavə dəyər mütləq qiymətlərlə davamlı artaraq 9 trilyon ABŞ dollarından 20 trilyon ABŞ dollarına qədər artıb. Belə artım sənaye sektorunun hər bir ölkə üçün nə qədər vacib olduğunu əyani surətdə sübut edir. Eyni ilə, kənd təsərrüfatı sektorunun ÜDM həcmində payı son 20 ildə 2 dəfədən çox azalalaraq 8,1%-dən 3,9% qədər enib. Belə azalma da qətiyyən o demək deyil ki, kənd təsərrüfatı sektorunun əhəmiyyəti iqtisadi inkişafda azalıb. Bu dövr ərzində kənd təsərrüfatında yaradılan əlavə

dəyərin mütləq qiyməti bunu deməyə əsas verir. Belə ki, bu dövr ərzində kənd təsərrüfatında yaradılan əlavə dəyərin miqdarı 1,2 trilyon ABŞ dollarından 3,35 trilyon ABŞ dollarına qədər artıb.

Cədvəl 1

Dünya iqtisadiyyatında sənayenin, kənd təsərrüfatı və xidmət sahələrinin payı

	Sənayenin ÜDM-da payı [1] (%)	Sənayedə yaranan ÜDM (cari mlrd.$) [2]	K/ təsərrüfatının ÜDM-da payı [3] (%)	K/t yaranan ÜDM (cari mlrd.$) [4]	Xidmət sahəsinin ÜDM-da payı (%)[5]	Xidmət sahəsində yaranan ÜDM (cari mlrd.$) [6]
1995	33,5831544	9,09771E+12	8,11638199	1,19031E+12	58,2993254	2,011E+13
1996	33,5452905	9,12298E+12	8,00678675	1,25606E+12	58,4473373	2,02186E+13
1997	30,9982573	8,81341E+12	6,08035203	1,21469E+12	62,9210452	1,96566E+13
1998	30,301379	8,52111E+12	5,94255034	1,16613E+12	63,7562688	1,98935E+13
1999	30,1040353	8,78776E+12	5,68114171	1,14525E+12	64,2151292	2,07806E+13
2000	30,4992963	9,18416E+12	5,2346545	1,13297E+12	64,2672506	2,13895E+13
2001	29,5576031	8,82265E+12	5,15627881	1,11881E+12	65,2862703	2,15854E+13
2002	29,0873462	9,0064E+12	5,0443533	1,14163E+12	65,8679005	2,25891E+13
2003	29,2256648	1,014E+13	4,91132543	1,28208E+12	65,863114	2,52217E+13
2004	29,6557473	1,16041E+13	4,80601127	1,46137E+12	65,5366547	2,81077E+13
2005	29,9595867	1,27639E+13	4,37340264	1,52354E+12	65,6651636	3,01654E+13
2006	30,2192201	1,4101E+13	4,12444699	1,64631E+12	65,6530769	3,22836E+13
2007	29,9778932	1,59419E+13	4,01281908	1,95467E+12	66,005696	3,61803E+13
2008	29,7275608	1,77014E+13	3,98731014	2,25665E+12	66,2815895	3,93904E+13
2009	27,9801902	1,59227E+13	3,93802194	2,21135E+12	68,0794419	3,84562E+13
2010	28,5471335	1,80807E+13	3,8831555	2,5777E+12	67,5231903	4,12945E+13
2011	28,8202582	2,06462E+13	3,94730184	2,9866E+12	67,3300296	4,51566E+13
2012	28,4082053	2,10382E+13	3,86594455	3,0863E+12	67,8092777	4,62317E+13
2013	27,9426001	2,14165E+13	3,96806134	3,29299E+12	68,0504033	4,75069E+13
2014	27,6203944	2,17215E+13	3,87591822	3,35083E+12	68,4656588	4,88448E+13

Qeyd: Cədvəl dünya bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Lakin həm sənaye sahələrində, həm də kənd təsərrüfatı sektorunda əmək məhsuldarlığının sürətlə artması, yeni texnika və texnologiyaların tətbiqi, innovasiyalı idarəetmə bu sektorlarla əlaqəli olan elm tutumlu xidmət sahələrinin sürətlə inkişafına təkan verib. Beləliklə, xidmət sektorunda yaradılan əlavə dəyərin ÜDM-da payı sürətlə artmaqdadır. Son 20 ildə xidmət sektorunda yaradılan əlavə dəyərin ÜDM-da payı 58,3%-dən 68,5%-ə qədər yüksəlib. Maraqlı fakt ondan ibarətdir ki, yüksək gəlirli və inkişaf etmiş ölkələrdə sənayenin və kənd təsərrüfatı sektorlarının ÜDM-da cəmi payı xidmət sektoruna aid olan paydan ən azı 2 dəfə azır. Az gəlirli və inkişaf etməkdə olan ölkələrdə isə əksinə xidmət sektorunun payı xeyli azdır. Qloballaşma prosesinə daha ləng qoşulan və öz "iqtisadi təhlükəsizliyini" qorumaq adı ilə daha çox proteksionist iqtisadi siyasət həyata keçirən ölkələrdə xidmət sektorunun sənaye və kənd təsərrüfat sektorlarına nisbətən zəif inkişaf etməsi əslində hər üç sektorun normal inkişaf etməməsindən xəbər verir.

Heç bir ölkə sənaye sektorunun ölkə iqtisadiyyatı üçün vacib olduğunu inkar edə bilməz. Bu sektor əhalinin məşğulluğunun təmin edilməsində də mühüm rol oynayır. Xüsusilə, kiçik və orta ölçülü sənaye müəssisələri təkcə texniki nöqteyi-nəzərdən çevikliyi ilə deyil, həm də əhalinin məşğulluğunun daha səmərəli təminatı baxımından diqqəti cəlb edir. 2-ci cədvəldə dünya iqtisadiyyatında sənaye sahələrində məşğul əhalinin ümumi məşğulların sayında pay dinamikası verilib. Cədvəldən görünür ki, sənaye sektorunda məşğul əhalinin payı sənaye sektorunun ÜDM-dakı payına müəyyən qədər adekvatdır. Lakin yüksək gəlirli ölkələrdə sənaye sektorunda çalışanların ümumi məşğulların sayında olan payı ilbəil azalır. Bu daha çox sənaye sektorlarında yüksək texnologiyaların tətbiqi ilə əmək məhsuldarlığının artması ilə bağlıdır. Orta gəlirli

ölkələrdə sənaye sektorunda çalışanların ümumi məşğulların sayında payı isə artmaqdadır. Bu əsasən iki səbəblə bağlıdır. Birincisi, sənaye müəssisələri getdikcə inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə transfer olunur. Bu ölkələrdə sənaye sektoruna qoyulan investisiyaların miqdarı durmadan artır. İkincisi isə bu ölkələrdə iqtisadiyyatın getdikcə dirçəlməsi sənaye müəssisələrinə daha çox daxili və xarici investisiyaların cəlb edilməsi ilə müşaiyət olunur.

Cədvəl 2

Dünya iqtisadiyyatında sənaye sahələrində məşğul əhalinin ümumi məşğulların sayında payı

	Sənayedə məşğulluğun ümumi məşğulluqda payı (%)[7]	**O cümlədən, qadınların payı (%)[8]**	**O cümlədən kişilərin payı (%) [9]**	**O cümlədən yüksək gəlirli ölkələrdə**	**O cümlədən, Orta gəlirli ölkələrdə**	**O cümlədən aşağı orta gəlirli ölkələrdə**
1994	22,0696168	m/y	m/y	29,0996265	20,2771313	17,0991303
2000	19,9729443	m/y	m/y	27,0805277	18,0221902	16,092774
2003	29,3988681	m/y	m/y	25,5348427	m/y	m/y
2004	29,7812344	24,4275871	33,5828049	25,4890018	m/y	m/y
2005	27,7653061	22,9620617	31,0331911	25,199741	29,2390333	18,5706119
2006	30,5393173	m/y	m/y	25,0551624	m/y	m/y
2010	28,8218165	m/y	m/y	22,3911263	30,5677409	21,0798073
2012	m/y	m/y	m/y	24,1226956	m/y	23,3632819
2013	m/y	m/y	m/y	23,8846784	m/y	21,2057039

Qeyd: Cədvəl Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Müasir sivilizasiya daha çox elektrik enerjisi ilə xarakterizə olunduğundan hansı ölkədə birbaşa və ya dolayısı ilə elektrik enerjisi istehlakı yüksək səviyyədədirsə, o ölkədə həyat səviyyəsi də yüksəkdir. Bu isə dolayısı ilə onu deməyə əsas verir ki, sənayesi inkişaf etmiş ölkələrdə həyat səviyyəsi yüksəkdir. Sənayenin inkişafı ölkə iqtisadiyyatı üçün zəruri olan sənaye mallarının idxalını azaldır, ölkədən valyuta axınının qarşısını alır. Əksinə sənaye mallarının ixracı, xüsusilə elmtutumlu sənaye mallarının ixracı ölkəyə əlavə valyuta ehtiyatı gətirir.

Chen and Ravallion tərəfindən aparılan tədqiqatların nəticəsinə görə 1981-ci ildə dünya əhalisinin 33%-I, 2001-ci ildə isə 18%-I yoxsulluq həddində yaşayırdı **[6].** Qlobal səviyyədə yoxsulluq həddindən aşağı səviyyədə yaşayan insanların xüsusi çəkisi son onilliklər ərzində xeyli azalıb Əlbəttə buna BMT-nin Minilliyin Çağırışı proqramları da xeyli dəstək verdi. Xüsusilə, əhalisi ən çox olan iki ölkədə-Çin və Hindistanda son 10 ildə iqtisadi artım yoxsulluq həddində olan insanların sayına ciddi təsir göstərdi.

Lakin ölkələr arasında və inkişaf etməkdə olan ölkələrdə regionlar arasında böyük fərqlər var. Bəzi regionlar və ölkələr, ilk növbədə Şərqi Asiya sənaye cəhətdən sürətlə inkişaf etməkdə olan ölkələrə daxildirlər. Təəssüf ki, əksər Afrika ölkələri hələ də sənaye cəhətdən zəif inkişaf etmiş ölkələr olaraq qalır. Sənayenin inkişafı, Çin, Koreya Respublikası, Çinin Tayvan Əyaləti (Tayvan) və İndoneziya kimi ölkələrin iqtisadi artımında mühüm rol oynayıb. , olub. Sənayenin inkişafı ilə bu ölkələrdə yoxsulluğun səviyyəsi sürətlə azalmaqdadır. Bəzi ölkələrdə iqtisadi artım bu ölkələrdəki qeyri-bərabərliyi xeyli azaldıb, bəzi ölkələrdə isə belə qeyri-bərabərlik kəskin olaraq qalır.

Sənayenin inkişafının yoxsulluğun və qeyri-bərabərliyin aradan qaldırılmasındakı rolu iqtisadi tədqiqatlarda diqqət mərkəzində olan problemlərdəndir.

Müasir anlamda İqtisadi artım daha çox Robert Solow tərəfindən hazırlanmış neoklassik artım modelinə əsaslanır **[7].** Solow modelində kapitalın toplanması iqtisadi artımı şərtləndirən əsas amildir. Məhsuldarlığın artımı hər bir İşçiyə düşən istehsalın həcminin artması kimi ölçülülür.

NƏTİCƏ

1. *dünya üzrə sənaye və kənd təsərrüfatı sektorunun ÜDM-da payı davamlı olaraq azalır.*

2. *dünya üzrə xidmət sektorunun payı*

3. *ÜDM-da payı davamlı olaraq artır.*

ƏDƏBİYYAT SİYAHISI

1. http://data.worldbank.org/indicator/NV.IND.TOTL.ZS
2. http://data.worldbank.org/indicator/NV.IND.TOTL.CD
3. http://data.worldbank.org/indicator/NV.AGR.TOTL.ZS
4. http://data.worldbank.org/indicator/NV.AGR.TOTL.CD
5. http://data.worldbank.org/indicator/NV.SRV.TETC.ZS
6. http://data.worldbank.org/indicator/NV.SRV.TETC.CD
7. http://data.worldbank.org/indicator/SL.IND.EMPL.ZS
8. http://data.worldbank.org/indicator/SL.IND.EMPL.FE.ZS
9. http://data.worldbank.org/indicator/SL.IND.EMPL.MA.ZS
10. Chen, S. and Ravallion, M. (2004), How have the world's poorest fared since the
11. early 1980s?, World Bank, processed
12. Solow, R. (1956), A contribution to the theory of economic growth. Quart. J. Econ., vol. 70, No. 1, pp. 65-94.

Оруджова М. С.
Диссертант
Азербайджанского Технического Университета

Оценка роли промышленности в глобальном экономическом развитии

Резюме

Цель исследования: сравнение стратегических экономических приоритетов на основе динамики мировых экономических секторов

Методология: сравнительный анализ

Результаты: Уменьшается доля промышленности и сельского хозяйства в мировом ВВП, а доля услуги увеличивается.

***Ключевые слова**: стратегический приоритет, промышленный сектор, сектор сельского хозяйства, сектор услуги*

Orujova M. C.
Candidate for degree of the
Azerbaijani Technical University

Assessment of industry role in global economic development

Abstract

Research objective: comparison of the strategic economic priorities on the basis of dynamics of world economic sectors.

Methodology: comparative analysis

Results: The share of the industry and agriculture in world GDP decreases, and the share of service sector increases.

Keywords: *strategic priority, industrial sector, agriculture sector, service sector*

Daxil olub: 15. 05.2017
Rəy verib: AMEA İqtisadiyyat Institutunun şöbəsinin əməkdaşı "*Sənaye siyasəti və investisiya problemləri*" i.f.d. *İbrahimov T. X.*